# NİZAMİ GƏNCƏVİ DÖVRÜNDƏ ELMƏ VƏ ELM ADAMLARINA VERİLƏN DƏYƏR

**Elvin Talışınski**

*AMEA Elm Tarixi İnstitutunun "Elmşünaslıq və elmin sosial problemləri" şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru*

*e.talishinski@inbox.ru*

*ORCID ID: 0000-0001-5318-5537*

Orta əsrlər Şərqinin ən böyük şairlərindən biri olan Nizami Gəncəvi bəşəriyyətin gələcək tarixində müstəsna rol oynayan hadisələrlə qeyri-adi dərəcədə zəngin bir dövrdə, XII əsrdə yaşayıb və yaratmışdır. Nizami Gəncəvi Antik dünya, eləcə də Yaxın və Orta Şərq, Afrika, İspaniyanın çoxsaylı xalqlarını özündə birləşdirən Ərəb xilafəti tərəfindən böyük mədəniyyətin miras qaldığı bir dövrdə yaşamış, elə həmin dövrün də dahi şəxsiyyətlərindən biri kimi tarixə düşmüşdür. Bu dövr, həm də Azərbaycanın Şərqin mədəni və iqtisadi mərkəzlərindən birinə çevrildiyi və bir çox xalqın nümayəndələri tərəfindən yaradılan fars dilli ədəbiyyatın inkişaf etdiyi bir dövrdür.

Ümumiyyətlə, orta əsrlərdə bəşəriyyət maddi və mənəvi mədəniyyətin inkişafında ciddi irəliləyişlərə nail oldu. Bu dövr bəşəriyyətə gözəl ədəbi əsərlər, ecazkar memarlıq abidələri, rəssamlıq nümunələri, ən əsası isə elmi düşüncənin nailiyyətlərini bəxş etmişdir. Qeyd etmək lazımdır ki, müasir sivilizasiyanın özü də orta əsrlər sivilizasiyasının daxili yenidən qurulması nəticəsində meydana gəlmişdir və bu mənada onun birbaşa varisi hesab olunur.

Orta əsrləri fərqləndirən xarakterik xüsusiyyətlərdən biri də heç şübhəsiz, həmin dövrün dahi şəxsiyyətlərinin hərtərəfli, yəni ensiklopedik biliklərə malik olmaları idi. O dövrdə yaşayan mütəfəkkirlərin əksəriyyəti o vaxtlar belə populyar olan elm sahələri - fəlsəfə, astronomiya, riyaziyyat, məntiq, ilahiyyat, tibb və s. kimi elmlərin mükəmməl biliciləri sayılırdılar.

Məhz IX-XII əsrlərdə Azərbaycan mədəniyyəti üçün çiçəklənmə dövrü başlamış, elm və maarifləndirmə isə özünün ən yüksək səviyyəsinə çatmışdır. Həmin dövrlərdə Azərbaycan dünyaya görkəmli şəxsiyyətlər, müxtəlif elm sahələri ilə məşğul olan alimlər, şair-mütəfəkkirlər, filosoflar, memarlar və s. bəxş etmişdir. Azərbaycanda dövrünün dünya elmi düşüncəsinin önündə dayanan elm adamlarının, şair və memarların yetişməsi dünya mədəniyyəti xəzinəsinə daxil olan şah əsərlərin yaradılmasına, elmin müxtəlif sahələrinin inkişaf etdirilməsinə böyük töhfələr verdi. Şərqdə, eləcə də, Avropada məşhur olan bir çox böyük mütəfəkkirlərimiz Azərbaycanda elmi-ədəbi mühitin formalaşmasında, onun beynəlxalq mədəni əlaqələrinin özünəməxsus şəkildə inkişaf etdirilməsində xüsusi xidmətlər göstərmişlər. Təsadüfi deyil ki, dövrün görkəmli şəxsiyyətləri – elm və ədəbiyyat xadimlərimizin əsərləri sonralar bir çox Şərq və Qərb ölkələri xalqlarının dillərinə tərcümə olunaraq dünya fəlsəfi fikrinin inkişafına əhəmiyyətli şəkildə təsir göstərdi. Bütün bunlar Azərbaycanlı elm adamları, mütəfəkkirlərin Şərq və Qərb dünyası üçün nə qədər əhəmiyyət kəsb etmələrinin bir daha bariz nümunəsidir.

Həyatımızı elm və onun nailiyyətləri olmadan təsəvvür etmək çox çətindir. Sirr deyil ki, Antik dövrdə meydana gələn elmlər müasir sivilizasiyanın formalaşmasında son dərəcə mühüm rol oynamışdır. Elmin mədəniyyətin müstəqil bir sahəsi kimi ayrılması, hələ maddi istehsalla praktik olaraq

əlaqəsi olmasa da, insanın dünya ilə olan aktiv, yaradıcı şəkildə dəyişən bir əlaqəsinin formalaşmasında ən vacib addım idi. Məhz orta əsrlərdə artıq Antik dövrdə mövcud olan elmi prinsiplərin dəqiqləşdirilməsinə, müasir dövrün mexanikasına zəmin hazırlanmasına kömək edən nailiyyətlər əldə edildi.

Rusiyalı tarixçi-etnoqraf Y.V.Bromley haqlı olaraq qeyd edirdi ki, maddi və mənəvi mədəniyyətin bölünməsi hər halda şərtidir, belə ki, insan əməyinin çox məhsulları eyni zamanda həm zehni, həm də fiziki əməyin nəticəsidir. İstənilən maddi əşya yaranmamışdan qabaq təsəvvürdə formalaşmalı, insan beyninin ideyası olmalıdır. Hər hansı ideya da başa düşülən olması üçün obyektivləşərək öz maddi ifadəsini (yazılı formada, təsviri şəkildə, memarlıq və s.) tapmalıdır.[1]

Elm konkret olaraq insanlar - alimlər tərəfindən həyata keçirilən bir fəaliyyət növüdür. Elm həm fərdin, həm də cəmiyyətin həyatında bir-birini tamamlayan bir sıra funksiyalarla xarakterizə olunur. Hər şeydən əvvəl bir çox alimlər tərəfindən qeyd olunur ki, elmi fəaliyyətə cəlb olunma, bilik sahəsi ilə tanışlıq insanın mədəni və mənəvi keyfiyyətlərini formalaşdırır. Elm bu gün müasir cəmiyyətdə insan həyatının bir çox fəaliyyət sahələrində mühüm rol oynayır. Şübhəsiz ki, elmin inkişaf səviyyəsi öz növbəsində cəmiyyətin inkişafının da əsas göstəricilərindən biri hesab olunur. Bu isə həm də dövlətin iqtisadi, mədəni, sivil, savadlı, müasir gələcəyinin və inkişafının göstəricisidir.

Əsrlər boyu bir çox formalaşma mərhələləri, tarixi inkişaf yolu keçən elm insan fəaliyyətinin müxtəlif peşəkar sahələrini möhkəmləndirən aparıcı, əsas fəaliyyət növü kimi çıxış edir. Elmin insan fəaliyyətinin ən vacib, təməl institutu olmasını şərtləndirən amillərdən biri də, onun sayəsində həm dünyanın, həm də ümumi nəzəriyyələrin vahid mənzərəsini müşahidə etməyin mümkün olmasıdır. Nəticə etibarilə isə bu mənzərə əsasında xüsusi nəzəriyyələr formalaşdırılır və sosial təcrübədə müvafiq peşəkar fəaliyyət sahələri fərqləndirilir. Başqa sözlə desək, elm, obyektiv reallığın dərk edilməsinə yönəlmiş, tarixən formalaşmış bir fəaliyyət formasıdır. Elmi tədqiqat isə yeni elmi biliklərin yaradılması, elmin tətbiqi və inkişaf forması, müxtəlif amillərin obyektlərə təsirinin qiymətləndirilməsi və eyni zamanda, elm və təcrübə üçün faydalı və təsdiqləyici nəticələrin əldə edilməsi baxımından mövcud olan hadisələr arasındakı qarşılıqlı əlaqənin öyrənilməsi prosesidir.

Tarixən elmi tədqiqatla bağlı iki əsas yanaşma mövcud olmuşdur. Birincisinin müəllifi görkəmli italyan alim Q.Qalileydir. Onun fikrincə, elmin əsas məqsədi cisimlərin davranışını təsvir etmək və yenilərini kəşf etmək üçün fenomenlərin əsasını bilməkdir. Bir sözlə, burada əsasən nəzəri biliyin vacibliyi qeyd edilir.

İkinci yanaşmanın müəllifi isə ingilis filosof, tarixçi F.Bekondur. Bu yanaşmadan daha az söhbət getsə də, hazırkı dövrdə məhz onun baxışı üstünlük təşkil edir: "Mən gələcəkdə bəşəriyyətin güclü olması və daha da çiçəklənməsi istiqamətində təməlin qoyulması üçün çalışıram. Bu məqsədə çatmaq üçün ancaq sxolastik mübahisələrdə mövcud olan deyil, əksinə yeni peşələrin meydana gəlməsində rol oynayacaq elmin öyrənilməsini təklif edirəm...". Elm bu gün tam olaraq bu yol - təcrübənin texnoloji inkişafı, təkmilləşməsi yolu ilə gedir.

[1] İslam: Tarix. Fəlsəfə. İbadətlər, s. 50-51

Elm ilə məşğul olmaq, öz növbəsində unikal xüsusiyyətlərə malik olan xüsusi bir fəaliyyət növüdür. Elm idrak fəaliyyətinin ictimai şəkildə təşkilatlanmış, nizamlanmış bir sahəsi kimi, elm ilə məşğul olanlar – alimlər qarşısında xüsusi tələblər irəli sürür. Elm bizim subyektiv istək və düşüncələrimizdən asılı olmayaraq dünyanı öz-özlüyündə olduğu kimi obyektiv olaraq qəbul edir. Alim araşdırma instinktlərini idarə etdiyi və həqiqətin əldə olunmasına xüsusi olaraq köklənmiş bir insandır. Hər bir elm adamı üçün həqiqətin dəyəri bütün dəyərlərdən yüksəkdir. Lakin elm adamı təkcə həqiqəti qiymətləndirmir, həmçinin onun dərinləşməsinə də öz töhfəsini verməyə çalışır.

Həqiqət uğrunda mübarizə aparan, yaşadığı dövrdə elmə və elm adamlarına öz əsərlərində yüksək qiymət verən azərbaycanlılardan biri də Nizami Gəncəvidir. Nizami Gəncəvi Azərbaycanın ən böyük şairi və mütəfəkkiri, poeziyada yeni bir istiqamətin - epik romantik janrın yaradıcısı kimi dünya şöhrəti qazanan, Şərq və Dünya İntibahının parlaq nümayəndəsi hesab olunur. Təsadüfi deyil ki, Nizami Gəncəvi həmişə, elə indi də dünya şərqşünaslığının diqqət mərkəzində olan tarixi şəxsiyyətlərdəndir.

Böyük mütəfəkkir, maarifpərvər olan dahi Nizami Gəncəvi elmə, təhsilə, maariflənməyə hər zaman böyük önəm vermişdir. Onun əsərlərində orta əsrlərdə populyar olan fəlsəfə, fizika, astronomiya, tibb, həndəsə, astrologiya, kimya kimi elm sahələrinə dair biliklər öz əksini tapmışdır. Şair öz əsərlərində aləm və yaradılışın qarşılıqlı münasibəti, insanın aləmdə tutduğu yer və oynadığı rol, ağıl və arif insan, rasionallıq və irrasionallıq, insan və cəmiyyət, insan və Allah, cəmiyyət və dövlət, xeyir və şər və s. kimi fəlsəfi məsələlərə münasibət bildirmişdir. Şairin həmçinin əsərlərində Sokrat, Aristotel, Fales, Platon, Sənai, Firdovsi, Fərabi, İbn Sina və s. kimi Antik dünyanın və orta əsr filosoflarının ideyalarına tez-tez müraciət etməsi və münasibət bildirməsi onun bu filosofların yaradıcılığı ilə yaxından tanış olmasını bildirir.[1]

"*Qüvvət elmdədir, başqa cür heç kəs,*
*heç kəsə üstünlük eyləyə bilməz*" -

deyən Nizami, insanın kamil şəxsiyyət kimi formalaşması, hikmət sahibi olması, kamala yetişməsi üçün mütləq onun başlıca vəzifə olaraq elmlərin əsaslarına dərindən yiyələnməsində görür. Öz şerlərində elmə yiyələnməyi zəruri hesab edən Nizami Gəncəvi eyni zamanda bunun yolunu oxumaqda, öyrənməkdə görür:

*"Hər kim öyrənməyi bilməyirsə ar,*
*Sudan dürr, daşdan da gövhər çıxarar.*
*Ancaq öyrənməyi ar bilən insan,*
*Məhrumdur dünyada bilik almaqdan".*

Böyük mütəfəkkir kamil insanın formalaşmasında elmin, öyrənməyin, biliklərə yiyələnməyin çox böyük rol oynadığını dönə-dönə qeyd edir. Şairin fikrinə görə ağlın çırağı məhz elmdir, bilikdir. Təkcə şairin dünya ədəbiyyatına tamamilə yeni bir poetik nəfəs gətirən "Xəmsə"sinə daxil olan əsərlərə nəzər salsaq, onun özünün yüksək ümumbəşəri dəyərlərə nə qədər önəm verdiyini və dünya irsinə layiqli töhfə verdiyini əminliklə söyləyə bilərik. Dahi şairimiz "Xəmsə"də elm, elm adamları, alimlərə verilən dəyər və s. məsələlərlə bağlı

[1] Əsgər Əhməd. " XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti", s. 218

bu gün də öz dəyərini itirməyən hikmətli fikir və ideyalar irəli sürmüşdür.

*“Hər uca rütbədən bilinir fəqət,*

*alimin rütbəsi ucadır əlbət” –*

deyən Nizami insan ağlının qüdrətinə inanır və bütün əsərlərində elmin əhəmiyyətindən xüsusilə bəhs edir. Onun bütün əsərlərində elm adamları və filosof obrazları olduqca önəmli yer tutur. Maraqlı məqamlardan biri də bu alim və filosofların cəmiyyətin hər bir üzvünü, o cümlədən hökmdarları düzgün yola dəvət edən intellektual qüvvə kimi təqdim olunmasıdır.

Bu baxımdan, Nizami Gəncəvinin “İskəndərnamə” poemasında bu məsələyə xüsusilə toxunulur. Bu poemanın “İqbalnamə” hissəsində isə şair böyük hökmdar, dünya fatehi Makedoniyalı İsgəndəri qədim dünyanın ən dahi alim və filosoflarının əhatəsində təsvir edir. Burada elm adamları İsgəndərə ağıllı məsləhətlər verir, ona dünyanın yaranması və inkişafı haqqında öz fikirlərini bildirir, bilik səviyyələrini nümayiş etdirirlər:

*“Gəlib filosoflar səf qurmuşdular,*

*Taxtın qarşısında oturmuşdular.*

*Hərə bir elmdən bildiyi qədər,*

*Söz açır, danışır, bəhs edirdilər.*

*Biri danışırdı təbiiyyatdan,*

*O biri dəm vurur ilahiyyatdan.*

*Kimi riyaziyyat bəhsinə girmiş,*

*Kimi həndəsəyə fikrini vermiş...*

*Hərəsi bir fənnlə edir iftixar,*

*Hərənin özünün bir aləmi var”.*

Dahi Azərbaycanlı şair ağıllı insanlara, böyük alimlərə yüksək qiymət verir, ən böyük hökmdarların, fatehlərin belə onlara ehtiyacı olduğu ideyasını dövrün insanlarına aşılayırdı. Böyük mütəfəkkir şahları, hökmdarları elmlərin sirrinə yiyələnməyə çağırır, qılıncın gücünə deyil, zəkanın qüdrətinə arxalanmağı tövsiyə edirdi. Təsadüfi deyil ki, Nizaminin yaratdığı bütün müsbət qəhrəmanlar yüksək mənəvi-əxlaqi keyfiyyətləri ilə yanaşı, elmi-intellektual səviyyəsi, dərin təfəkkürü, heyrətləndirici ağılı ilə fərqlənirlər. Bu baxımdan Nüşabə, İsgəndər, Şirin, Məhinbanu, Xosrov və s. obrazlarını xüsusi qeyd etmək olar.[1]

Orta əsrlərin böyük mütəfəkkirlərindən olan Nizami eyni zamanda dövrünün görkəmli filosofu idi. Dahi şair və böyük alim olan Nizaminin əsərlərində təbiətşünaslıq, riyaziyyat, astronomiya, kosmologiya, fəlsəfə, ilahiyyat, tibb, etika, musiqi və s. elmlərə aid zəngin və dərin elmi mahiyyətə malik olan məlumatlara rast gəlmək olar. Bütün bunlar ona dəlalət edir ki, Nizami Gəncəvi öz dövrünün bütün elmlərinə dərindən yiyələnən böyük alim olmuşdur.

Onun əsərlərində elmi biliklərin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Nizami yaradıcılığına əsasən deyə bilərik ki, şair elmin müxtəlif sahələrinə dair mükəmməl biliyə malik olmuşdur. Şerlərinin birində o, sanki öz biliyinə qiymət verərək yazır:

“Bilik ordusunda əqlim yol açan bir əsgər olmuş,

Ədəbim ayıq sayaqdır, o, kamala pasibandır”.[2]

Nizami Gəncəvi bütün əsərlərində elmin inkişafına töhfə verən, elm adamlarını qoruyan və onların göstərişlərinə uyğun olaraq dövləti idarə edən hökmdarların

[1] Daha ətraflı bax: Əsgər Əhməd. “ XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti”. Bakı-2012, “Elm” nəşriyyatı, 372 səh.

[2] Gəncəvi N. Lirika , s. 76

fəaliyyətini yüksək qiymətləndirir. Onun ədəbi irsinin elmi-fəlsəfi aspektdə tədqiqi və təhlili bir daha göstərir ki, o, bütün əsərlərində əsas ideya kimi ağılın, əxlaqın, elmi dünyagörüşünün formalaşdırılması çıxış edir. Yüksək elmi dünyagörüşə malik olan dahi şairimiz cəmiyyəti, dövləti, ümumilikdə dünyanı xilas edəcək ən böyük qüvvənin, qüdrətin məhz elm olduğu fikrini irəli sürür.

Öz növbəsində elmə, biliklərə yiyələnməyin yolunu yalnız çalışmaqda, zəhmətdə, daim araşdırmaqda görən şair yazırdı:

*"Mən dünyanı oyunla başa vurmadım,*

*Yeməkdən, yatmaqdan savayı başqa içimdə var idi.*

*Bir gecə də olsun mən yatağa rahat girmədim,*

*Elmin yeni bir qapısını açmadan".*[1]

Elmə, elmi biliklərə yiyələnməyə, elm adamlarına böyük dəyər verən dahi şairimiz Nizami Gəncəvi təkcə dövrünün tanınmış mütəfəkkiri olaraq kifayətlənmədi, onun əsərlərinin bu gün də Orta Şərq, Qafqaz və Orta Asiya ölkələrinin ədəbiyyatına güclü təsirini hiss etmək olar. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin mədəni irsinə böyük töhfələr vermişdir. Əbəs yerə deyil ki, 1991-ci ili UNESCO məhz "Nizami ili" kimi elan etmişdi.

Beləliklə, xalqımızın tarixi yaddaşında silinməz iz buraxan və tükənməz tədqiqat mənbəyi olan Nizami Gəncəvi yaradıcılığı gələcək nəsillər üçün də bir örnək rolunu oynayacaqdır.

---

[1] Gəncəvi N. İskəndərnamə, s. 46

**ƏDƏBİYYAT**


1. İslam: Tarix. Fəlsəfə. İbadətlər. Məsul redaktorlar akademik Z. Bünyadov və f.e.d. R. Əliyev. Bakı, Elm, 1994.
2. Əsgər Əhməd. " XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti". Bakı-2012, "Elm" nəşriyyatı, 372 səh.
3. Gəncəvi N. Lirika . Bakı, Gənclik, 1980
4. Gəncəvi N. İsgəndərnamə. Filoloji tərcümə. Bakı, Elm, 1983